**SDG kontekstində analitik dil tədrisi**. Analitik mətn tapşırıqları BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə SDG 4 – Keyfiyyətli Təhsil istiqamətinin həyata keçirilməsinə mühüm töhfə verir. Bu yanaşma inklüziv və tələbəyönümlü təhsil mühitinin formalaşdırılmasını təmin edir. *"Analitik tapşırıqlar tələbələrin fərdi öyrənmə xüsusiyyətlərini nəzərə alaraq onların potensialının inkişafına şərait yaradır. Bundan əlavə, bu metod tələbələrdə ömürboyu öyrənmə bacarıqlarının formalaşmasına, sosial və akademik adaptasiya imkanlarının genişlənməsinə xidmət edir. Analitik yanaşma tələbələrin məlumatı tənqidi qiymətləndirməsinə, müasir informasiya mühitində düzgün qərar qəbul etməsinə və bilikləri praktik situasiyalarda tətbiq etməsinə kömək edir"* [Fauconnier, 2002:129].

**Nəticə/Conclusion**

Dil tədrisində mətnlərin analitik mənalandırılması tələbələrin dil kompetensiyası ilə yanaşı, onların koqnitiv və analitik düşünmə bacarıqlarının paralel inkişafını təmin edir. Analitik tapşırıqlar tələbələrin mətnlə aktiv qarşılıqlı əlaqəsini formalaşdırır, semantik əlaqələri müəyyənləşdirməyə və müəllif mövqeyini qiymətləndirməyə imkan yaradır. Bu yanaşma müasir təhsil standartlarına uyğun olaraq davamlı öyrənmə modelinin formalaşdırılmasına kömək edir. Araşdırmanın nəticələri göstərir ki, analitik mətn tapşırıqlarının sistemli tətbiqi tələbələrin akademik müvəffəqiyyətinə, tənqidi düşünmə səviyyəsinə və müstəqil öyrənmə bacarıqlarına müsbət təsir göstərir. Bu səbəbdən analitik tapşırıqlar dil tədrisinin mühüm metodik komponentlərindən biri hesab edilə bilər.

**ƏDƏBİYYAT/REFERENCES**

1. Fauconnier, G., Turner, M. (2002. The way we think: conceptual blending and the mind's hidden complexities. – New York: Basic Books. − 440 p.
2. Evans, V., Green, M. (2006). Cognitive linguistics: an ıntroduction. – Edinburgh: Edinburgh University Press. − 830 p.
3. Richards, J. (2015). Key issues in language teaching. – Cambridge: Cambridge University Press. − 320 p.
4. Əliyev, R. (2018) Müasir pedaqogikanın əsasları. – Bakı: "Elm" nəşriyyatı. − 280 s.
5. UNESCO. (2017) Education for Sustainable Development Goals. – Paris.

**Məqalə tarixçəsi**

*Daxil olub* *19.01.2026*

*Qəbul edilib* *04.02.2026*

*Nəşrə tövsiyə edib* *Piralı Əliyev*

*pedaqogika elmləri doktoru, professor*

*https://doi.org/10.30546/114578.2026.3015.224*

# STRATEGİYALI OXUNUN TƏDRİSİNDƏ MÖVCUD PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

**Kamilə Qədimli**
*doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCİD.org/ 0009-0004-5336-7997*
*kamile.qedimli.99@mail.ru*

**Xülasə**

Strategiyalı oxunun tədrisi prosesi zamanı müəyyən metodik və təşkilati problemlər müşahidə olunur. Aparılan təhlillər göstərir ki, şagirdlərin oxu strategiyalarından şüurlu və məqsədyönlü istifadə etməməsi, müəllimlərin strategiya əsaslı tədris sahəsində bilik və bacarıqlarının yetəri qədər olmaması, eləcə də tədris resurslarının məhdudluğu bu sahədə əsas çətinlik yaradan meyarlardandır. Həmçinin bu prosesi zamanı şagird fəallığının zəif təşkili və fərdi oxu səviyyələrinin nəzərə alınmaması strategiyalı oxunun effektivliyini müəyyən qədər azaldır. Problemlərin aradan qaldırılması üçün müəllim hazırlığının təkmilləşdirilməsi, müasir pedaqoji yanaşmaların tətbiqi və interaktiv oxu strategiyalarından istifadənin genişləndirilməsi vacib hesab olunur. Strategiyalı oxunun sistemli şəkildə təşkili şagirdlərin mətnanlama və tənqidi düşünmə bacarıqlarının inkişafına müsbət təsir göstərir. Bu baxımdan, strategiyalı oxunun tədris prosesinə mərhələli və məqsədyönlü şəkildə inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Qeyd edilən yanaşmaların tətbiqi ümumi təlim keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin müstəqil öyrənmə bacarıqlarının formalaşmasına imkan yaradır.

**Açar sözlər:** strategiyalı oxu, oxu bacarıqları, tədris problemləri, pedaqoji yanaşmalar, mətnanlama.

# PROBLEMS AND SOLUTİONS İN THE TEACHİNG OF STRATEGY-BASED READİNG

**Kamila Gadimli**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

During the instructional process of strategy-based reading, certain methodological and organizational challenges are observed. The conducted analyses indicate that students' lack of conscious and purposeful use of reading strategies, teachers' insufficient knowledge and skills in strategy-based instruction, as well as the limited availability of instructional resources are among the main factors creating difficulties in this field. In addition, inadequate organization of student engagement during the reading process and the failure to consider individual reading levels reduce the effectiveness of strategy-based reading to a certain extent. In order to overcome these problems, it is considered essential to improve teacher training, apply modern pedagogical approaches, and expand the use of interactive reading strategies. The systematic organization of strategy-based reading has a positive impact on the development of students' reading comprehension and critical thinking skills. From this perspective, the gradual and purposeful integration of strategy-based reading into the instructional process is of particular importance. The implementation of the mentioned approaches contributes to improving overall instructional quality and fostering students' independent learning skills.

**Key words:** strategy-based reading, reading skills, instructional challenges, pedagogical approaches, reading comprehension.

## ПРОБЛЕМЫ И ПУТИ ИХ РЕШЕНИЯ В ОБУЧЕНИИ СТРАТЕГИЧЕСКОМУ ЧТЕНИЮ

**Камиля Гадимли**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В процессе обучения стратегическому чтению наблюдаются определённые методические и организационные проблемы. Проведённый анализ показывает, что отсутствие у учащихся осознанного и целенаправленного использования стратегий чтения, недостаточный уровень знаний и навыков учителей в области стратегически ориентированного обучения, а также ограниченность учебных ресурсов являются одними из основных факторов, затрудняющих данный процесс. Кроме того, слабая организация активности учащихся в процессе чтения и недостаточный учёт индивидуальных уровней читательской подготовки в

определённой степени снижают эффективность стратегического чтения. Для устранения выявленных проблем необходимо совершенствование подготовки учителей, внедрение современных педагогических подходов и расширение использования интерактивных стратегий чтения. Системная организация стратегического чтения оказывает положительное влияние на развитие у учащихся навыков понимания текста и критического мышления. В этом контексте поэтапная и целенаправленная интеграция стратегического чтения в учебный процесс приобретает особую значимость. Реализация указанных подходов способствует повышению общего качества обучения и формированию у учащихся навыков самостоятельного обучения.

**Ключевые слова:** стратегическое чтение, читательские навыки, проблемы обучения, педагогические подходы, понимание текста.

**Giriş/İntroduction**

Müasir təhsil sistemində oxu bacarıqları dedikdə yalnız mətnin səsləndirilməsi nəzərdə tutulmur, burada oxuduğunu anlama, düzgün təhlil və oxuduğundan nəticə çıxarmaq əsas məsələdir. Məlumdur ki, hal-hazırda 6-cı sinif şagirdləri üçün monitorinq imtahanları keçirilir və burada Azərbaycan dilindən üç mətn olmaqla 25 sual təqdim olunur. Bu suallar isə şagirdlərin oxuyub-anlama bacarıqlarını ölçən suallardır. Həmçinin buraxılış imtahanlarında da mətnlər şagirdlərin oxuyub-anlama bacarıqları ilə əlaqəlidir. Buradan da aydın olur ki, Azərbaycan dili məzmun xətləri arasında oxu məzmun xətti daha mühüm əhəmiyyət kəsb edir. Oxunun isə ən mükəmməl forması strategiyalı oxudur. Strategiyalı oxu şagirdlərin mətni şüurlu şəkildə oxumasını və anlamasını təmin edən vacib bacarıq hesab olunur. *"Strategiyalı oxu "düşünərək oxu" deməkdir"* [Səfərəliyeva, 2023:40]. Məqaləni yazmaqda əsas məqsəd hal-hazırda məktəblərdə strategiyalı oxunun mövcud vəziyyətini tədqiq etmək, buradakı əsas problemləri müəyyən etmək və inkişaf etdirmək yollarını göstərməkdir.

Məktəb təcrübəsi göstərir ki, oxu bacarığı şagirdlərin əksəriyyətində yetərli səviyyədə formalaşdırılmamışdır. Bunun səbəbləri çoxşaxəlidir və bir sıra amillərlə izah olunur; bunlara məktəbdə və evdə müvafiq təlim metodlarının tətbiq edilməməsi, fərdi oxu vərdişlərinin zəifliyi, motivasiya çatışmazlığı və müəllimlərin tədris prosesində oxu bacarıqlarının inkişafına kifayət qədər diqqət yetirməməsi daxildir.

**Oxu strategiyaları.** Oxu fəaliyyəti çox zaman formal xarakter daşıyır. Mətni düzgün oxumaq hələ şüurlu oxumaq deyil, bəzən şagird mətni oxuyarkən nöqsanlara yol verə bilər, lakin mətndəki əsas fikri dərk edir. Belə ki, şagirdlər mətni sadəcə olaraq oxuyurlar, anlaya bilmirlər. Çünki oxudan əvvəl mətndə əsas diqqət edilməli məqamlar müəyyənləşdirilmir, mətnin məzmunu, ideyasını müəyyən edə bilməmək, həmçinin ümumiləşdirmə bacarığının zəifliyi və s. səbəblər mətni anlamağa icazə vermir. Şagirdlərin oxuduqlarını anlaya bilməmə səbəbləri müxtəlifdir. Bəzən şagirdlər sözləri düzgün tələffüz edə bilmirlər və bu da anlamada problem yaradır, bəzən isə şagird sözləri düzgün oxuyur, tək-tək sözlərin mənasını da aydınlaşdırır, lakin mətnin ümumi ideyasının müəyyən olunmasında çətinlik çəkir. Məktəb müşahidələri onu göstərir ki, şagirdlər bədii mətnləri daha rahat şəkildə anlayırlar, amma informativ mətnləri, xüsusən də kəşflər, terminlərlə zəngin olan mətnləri anlamaqda çətinlik çəkirlər. Məhz bu zaman mətn oxunmazdan əvvəl mənası çətin olan sözlərin izahı müəllim tərəfindən verilməli və mətn əvvəlkindən sadə formada şagirdlərə təqdim olunmalıdır. Bu baxımdan strategiyalı oxu bacarıqları şagirdlərdə formalaşdırılmalıdır, çünki şagirdin müstəqil şəkildə mətni oxuması məhz stratrjik oxuya bağlıdır. *“Strateji oxucu olmaq oxucuya özü ilə mətn, mətnlə həyat və mətnlər arasında əlaqələr qurmağa kömək edir“* [Çolak, Yılmaz, 2023: 3843]. Oxunu çətinləşdirən bir digər səbəb mətndə mənası çətin anlaşılan sözlərdir. Bəzən müəllimlər bu sözlərin mənasını tapmağı şagirdlərin öhdəsinə buraxırlar. Bu zaman zəif şagirdlər sözlərin mənasını müəyyən bilmirlər. Beləliklə, mənası çətin olan, lakin mətnin məzmunu ilə sıx bağlı olan sözlər müəllimlər tərəfindən izah olunmalıdır. N.Cəfərova qeyd edir: *“Sözlər xarakterindən, mətndəki mövqeyindən və şagirdə tanış olub-olmaması vəziyyətindən asılı olaraq giriş müsahibəsi zamanı, mətn oxunarkən və mətn oxunduqdan sonra izah edilə bilər”* [Cəfərova, 2016:392].

Bir digər səbəb isə oxu strategiyalarının tədris proqramlarında yetəri qədər yer almamasıdır. Əvvəlki dərsliklərə diqqət yetirdikdə burada reproduktiv tapşırıqlara üstünlük verildiyini görürük. Müasir Azərbaycan dili dərsliklərində yer alan mətnlərdə isə rəngarənglik nəzərə alınmış və həm də şagirdlərin yaş səviyyələrinə uyğundur. Əvvəlki dərsliklərlə müqayisədə müasir Azərbaycan dili dərsliklərində yer alan oxu mətnləri və oxu məzmun xətti üzrə tapşırıqlar taksonomiyanın səviyyələrinə uyğun şəkildə tərtib olunmuşdur. Oxunan mətndəki məlumatları ümumiləşdirməklə bağlı tapşırıqlar yadda saxlama, anlama səviyyələrinə uyğun gəlir, mətndə açıq şəkildə ifadə olunmayan

informasiyaların müəyyənləşməsi ilə bağlı tapşırıqlar, mətnin ideya, məzmun, dil-üslub xüsusiyyətləri ilə bağlı tapşırıqlar isə daha yuxarı səviyyələr olan təhlil, dəyərləndirmə, yaratmaq səviyyələrinə uyğundur. *"Oxuyub-anlama yalnız dil bilgisi ilə deyil, ümumi intellektual səviyyə ilə bağlı olan bir bacarıqdır"* [ADF..., 2021:6]. Buradan da aydın olur ki, şagirdin mətni oxuyub anlaması üçün müəyyən söz ehtiyatına, təfəkkür səviyyəsinə malik olması lazımdır. Həmçinin dərsliklərdə oxu strategiyaları sistemli şəkildə tətbiq olunmalıdır. Oxudan əvvəl proqnozlaşdırma, məqsəd müəyyən olunmalıdır. Oxu zamanı qeydlər aparmaq, sualvermə, oxudan sonra isə nəticə çıxarmaq, təhlil və s.strategiyalardan istifadə olunmalıdır. Oxu zamanı istiqamətləndirilmiş oxu strategiyasından da istifadə etmək olar. Belə ki, bu yolla müəllim oxu prosesi boyunca şagirdləri düzgün şəkildə yönləndirir, onların mətni anlayaraq oxumasına kömək edir. Çünki istiqamətləndirilmiş oxu planlı oxudur, şagirdləri anlamağa sövq edir. Bu, oxu prosesində çətinlik çəkən şagirdlərə köməkçi rolunu oynayır. Şagirdlərdə tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirir.

Bəzi müəllimlərin bu sahədə metodiki hazırlığının zəif olduğu müşahidə edilir. Strategiyalı oxu zamanı müəllim və şagirdlər arasında qarşılıqlı əməkdaşlıq olmalıdır. Müəllim fasilitator kimi oxuya nəzarət etməli, onların bilik və bacarıqlara yiyələnmələrinə çalışmalıdır. Oxu zamanı əgər mətnin hansısa hissəsi anlaşıqlı olmazsa, şagird həmin hissəni yenidən oxumalıdır, qeyd aparmalıdır, çünki bu mərhələ dərketmənin yüksəlməsinə səbəb olur. Müəllim mətni şagirdə oxumağı tapşırıb sonra isə onu qiymətləndirməməlidir. Strategiyalı oxu prosesində müəllim şagirdlərin oxu zamanı istifadə etdikləri strategiyaları müşahidə etməli və zəruri hallarda istiqamətləndirici dəstək göstərməlidir. Bu zaman sual-cavab, müzakirə və refleksiya fəaliyyətlərindən istifadə şagirdlərin fəallığını artırır. Həmçinin, fərdi oxu səviyyələrinin nəzərə alınması hər bir şagirdin oxu prosesinə daha effektiv cəlb olunmasına imkan yaradır. Strategiyalı oxu zamanı qiymətləndirmə yalnız nəticəyə deyil, prosesə də yönəlməli, şagirdlərin inkişaf dinamikası izlənilməlidir. Belə yanaşma oxu bacarıqlarının sistemli şəkildə formalaşmasına və şagirdlərin mətnlə müstəqil işləmək qabiliyyətinin inkişafına şərait yaradır. Bu zaman şagirdlərdə oxu bacarıqları inkişaf etməyəcək, xüsusən də zəif şagirdlər bu prosesdən kənarda qalacaq. Müəllim oxu prosesini təşkil etməli, oxu başlamazdan əvvəl, oxu zamanı, oxudan sonra şagirdləri izləməli, çətinlik çəkdikləri məqamlara aydınlıq gətirməlidir. Bu mərhələli yanaşma şagirdlərin oxu fəaliyyətinə sistemli şəkildə cəlb olunmasına və mətni daha dərindən dərk etmələrinə imkan yaradır. Eyni

zamanda, müəllimin vaxtında verdiyi istiqamətləndirici dəstək oxu zamanı yaranan maneələrin aradan qaldırılmasına kömək edir. Beləliklə, oxu prosesinin düzgün təşkili bütün şagirdlərin, xüsusilə də zəif oxu bacarığına malik olanların təlimdə fəal iştirakını təmin edir. Ənənəvi təlimlə müqayisədə bu gün mətn üzrə iş dünya təhsil sisteminə inteqrasiya olunaraq həyata keçirilir, məsələn, mətnin yenidən adlandırılması, mətnə uyğun atalar sözü, ideyanın tapılması, mətnin sonunun proqnozlaşdırılması və s. buraya aiddir. Şagirdlərin mətnin oxusu zamanı əvvəl müəllim izahlar verməli və ardınca mətn oxunmalıdır. Bundan sonra şagirdlər rahat şəkildə öz oxularını özləri idarə edə biləcəklər. *"Bununla belə, müəllimlər həmin müddət ərzində şagirdlərin gördükləri işləri izləməli, onlara fasilitatorluq etməlidir"* [Alıkişiyeva, 2024:83].

Şagirdlərin oxuya motivasiyasının aşağı səviyyədə olması da onların mətni anlamasında problem yarada bilər. Şagirdlərin anlama bacarıqlarının zəif olması, oxuduqlarını anlamaqda çətinlik çəkmələri bir çox ölkələrin təhsil sistemində özünü göstərən əsas problemlərdən biridir. Bu zaman dünya təcrübəsində geniş istifadə olunan üsullardan istifadə etmək lazımdır, bu bir tərəfdən onların oxuya həvəslərini artıracaq, digər tərəfdən də anlama bacarıqlarını gücləndirəcək. Dünya təcrübəsində geniş istifadə olunan üsullardan biri BİBÖ (KWL) üsuludur. Çünki bu üsul oxudan əvvəl şagirdlərin bildikləri ilə oxudan sonra əldə edəcəkləri bilikləri əlaqələndirir. Tədqiqatlar BİBÖ üsulunun şagirdlərin oxuduqlarını anlama bacarıqlarını yüksəltdiyini göstərir. Belə ki, oxu başlamazdan əvvəl beyin həmləsi vasitəsilə şagirdlər mövzu ilə bağlı nə bildiklərini birinci sütuna yazır, nələri bilmək istədiklərini ikinci sütuna yazır və oxu prosesində bu suallara cavab axtarır və oxudan sonra şagirdləri sualları cavablandıraraq üçüncü sütuna yazılır. Bu üsulun üstünlüyü ondadır ki, şagird şüurlu şəkildə mətni oxuyur, hansı suallara cavab tapmalı olduğunu bilir və bu prosesdə müəllim *"Nələri öyrənmək istəyirsiniz?", "Mətni niyə oxuyursunuz?", "Mətndə hansı məqamlar daha çox diqqətinizi çəkir? "* və s. kimi suallar verərək şagirdlərin anlamasını gücləndirir. *"Aydındır ki, anlayışa gətirib çıxarmayan oxumalar oxuculara nə gündəlik həyatda, nə də akademik baxımdan fayda verməyəcək"* [Səfərəliyeva, 2023:38].

**Nəticə/Conclusion**

Strategiyalı oxu bacarıqlarının inkişaf etdirilməsi məqsədilə kompleks və sistemli yanaşmanın tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan strategiyalı oxu tədris prosesinin epizodik elementi deyil, onun ayrılmaz və davamlı tərkib hissəsinə çevrilməlidir. Strategiyalı oxunun məktəb mühitində